26 (1281) 6-12 iyul 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “AZƏRBAYCAN QOŞULMAMA HƏRƏKATINA SƏDRLİYİ DÖVRÜNDƏ ÜZV ÖLKƏLƏRİN QANUNİ MARAQLARINI QƏTİYYƏTLƏ QORUYUB”







“Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə “Bandunq prinsipləri” əsasında ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorudu”.

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən “Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda nazirlər görüşündə söyləyib.

Üzv ölkələrin yekdil qərarı ilə Azərbaycanın 2019-2022-ci illər üçün sədrliyi öz üzərinə götürdüyünü xatırladan dövlətimizin başçısı deyib ki, beynəlxalq ictimaiyyət COVID-19 pandemiyası ilə necə mübarizə aparacağı barədə çaşqın vəziyyətdə olarkən, bu çağırışla mübarizədə qlobal səyləri birləşdirən məhz Qoşulmama Hərəkatı olub.

O, deyib: “2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə təşkil edilmiş Qoşulmama Hərəkatının liderlər səviyyəsində onlayn sammiti 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə nəticələndi. Bundan əlavə, Qoşulmama Hərəkatının bəzi zəngin ölkələr tərəfindən yürüdülən “peyvənd millətçiliyi”nə güclü etirazı və bunun ardınca bütün ölkələr üçün peyvəndlərə ədalətli və universal çıxışla bağlı BMT qətnamələrinin qəbul edilməsi Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyinə dəlalət edir”.

## “ÖLKƏLƏRİN DAXİLİ İŞLƏRİNƏ MÜDAXİLƏ HALLARINA QARŞI ÖZ SƏSİMİZİ UCALTMALIYIQ”

“Multilateralizmin əsl müdafiəçisi və BMT-dən sonra ikinci böyük təsisat kimi Qoşulmama Hərəkatı yenidən formalaşan dünya nizamında öz yerini tapmalıdır”. Bu fikri Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən nazirlər görüşündə səsləndirib. “Biz “Bandunq prinsipləri” ətrafında qətiyyətlə dayanmalı, suverenliyin və ərazi bütövlüyünün pozulması, ölkələrin daxili işlərinə müdaxilə hallarına qarşı öz səsimizi ucaltmalıyıq”, - deyən dövlətimizin başçısı vurğulayıb ki, Hərəkatın dünya məsələlərində daha ön mövqedə olması mühüm əhəmiyyət kəsb edir.

## “FRANSA MÜSTƏMLƏKƏ KEÇMİŞİNƏ VƏ SOYQIRIMI AKTLARINA GÖRƏ ÜZR İSTƏMƏLİDİR”

“Fransanın soyqırımılarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib. Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri müharibə qənimətləri kimi saxlanılır”.

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə bildirib. Bunun utancverici və iyrənc hərəkət olduğunu deyən dövlətimizin başçısı qeyd edib: “Biz Fransa prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik”. Prezident İlham Əliyev Fransanın öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməli olduğunu da diqqətə çatdırıb.

## “AZƏRBAYCAN İNDİ BİR SIRA NƏHƏNG ÇAĞIRIŞLARLA ÜZ-ÜZƏDİR”




“Otuz il əvvəl Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizini işğal etdi, həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirib”.

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən “Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda nazirlər görüşündə çıxışı zamanı bildirib.

Ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycanın indi bir sıra nəhəng çağırışlarla üz-üzə olduğunu söyləyən dövlətimizin başçısı vurğulayıb: “Keçmişdə işğal altında olmuş ərazilərdəki dağıntıların miqyasından dəhşətə gəldik. Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr, məscidlər təhqir olunmuş, qarət edilmişdir”.

## “FRANSA NEOKOLONİALİZMİ HƏLƏ DƏ DAVAM ETDİRƏN ÖLKƏLƏRDƏN BİRİDİR”

“Neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır”.

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən nazirlər görüşündə söyləyib.

Dövlətimizin başçısı bildirib ki, Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir.

Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılmasının onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdiyini vurğulayan dövlətimizin başçısı qeyd edib: “Təəssüf ki, Fransa Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və “Orientalizm” müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışır”.

## “İSLAMIN ZORAKILIQ VƏ TERRORLA EYNİLƏŞDİRİLMƏSİ CƏHDLƏRİNDƏN NARAHATIQ”

“Mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi bizim gündəliyimizdə öndə duran məsələlər olmalıdır”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə çıxışı zamanı deyib. Geniş vüsət alan islamofobiya və ksenofobiya hallarından, həmçinin İslamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərindən narahatlığını ifadə edən Prezident bildirib: “Danimarkada, Niderlandda, İsveçdə müqəddəs Quranın yandırılması və təhqir olunması və buna ifadə azadlığı adı altında bəraət qazandırılması tamamilə məsuliyyətsizlikdir, qəbulolunmazdır və bu, pislənilməlidir”.

## QOŞULMAMA HƏRƏKATININ ƏLAQƏLƏNDİRMƏ BÜROSUNUN NAZİRLƏR GÖRÜŞÜ İŞİNİ DAVAM ETDİRİR

İyulun 5-də Bakı Konqres Mərkəzində keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun “Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda nazirlər görüşü davam edir.

Tədbirdə Birləşmiş Millətlər Təşkilatının Cenevrə ofisinin baş direktoru Tatyana Valovaya BMT-nin Baş katibi Antonio Quterreşin tədbir iştirakçılarına müraciətini oxuyub.

Müraciətdə qeyd edilib ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə dünyanın üzləşdiyi çağırışların müzakirəsinə və həllinə töhfələr verib.

Monteneqronun Baş naziri Dritan Abazoviç çıxışında bildirib ki, Qoşulmama Hərəkatı böhranların həll yollarının tapılması, müzakirələr üçün platforma təklif edir. O, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini və bu təşkilatın qlobal səsinin daha da gücləndirilməsi üçün təşəbbüslərini dəstəklədiyini diqqətə çatdırıb.



Türkiyənin xarici işlər naziri Hakan Fidan Azərbaycanın Qoşulmama Hərəkatının sədri vəzifəsinin öhdəsindən uğurla gəldiyini vurğulayıb. “Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi çox çətin bir zamanda, müharibələr və münaqişələr dövründə qəbul edib. Bu, çox çətin bir iş idi”, - deyə XİN başçısı diqqətə çatdırıb.

# “AZƏRBAYCANLA BELARUSU ƏNƏNƏVİ SIX DOSTLUQ, ƏMƏKDAŞLIQ VƏ QARŞILIQLI DƏSTƏK MÜNASİBƏTLƏRİ BAĞLAYIR”



Bu fikri Prezident İlham Əliyev Belarusun dövlət bayramı – Müstəqillik Günü münasibətilə Belarus Prezidenti Aleksandr Lukaşenkoya təbrik məktubunda ifadə edib.

Məktubda deyilir: “Bu il biz Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd etdik. Fərəhli haldır ki, tarixi baxımdan qısa zaman kəsiyi ərzində biz nəinki ortaq keçmişin müsbət nəticələrinin qorunub saxlanılmasına və artırılmasına, həm də qarşılıqlı fəaliyyətin keyfiyyətcə yeni səviyyəyə çıxarılmasına nail olmuşuq”.

Dövlətimizin başçısı qeyd edib ki, biz Azərbaycan-Belarus əməkdaşlığının ölkələrimiz üçün qarşılıqlı maraq kəsb edən bütün sahələrdə inkişafına xüsusi əhəmiyyət veririk. **“Əminəm ki, bizim birgə səylərimiz xalqlarımızın və ölkələrimizin maraqları naminə bundan sonra da Azərbaycan və Belarus arasında ənənəvi dostluq əlaqələrinin və strateji tərəfdaşlığın möhkəmlənməsinə yönəldiləcəkdir”**, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

# SON GÜNLƏR AZƏRBAYCANDA BAŞ VERƏN SEL VƏ DAŞQINLARIN FƏSADLARININ ARADAN QALDIRILMASI İLƏ BAĞLI MÜŞAVİRƏ KEÇİRİLİB



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə iyulun 3-də son günlər ölkəmizdə baş verən sel və daşqın hadisələrinin fəsadlarının aradan qaldırılmasına həsr olunmuş müşavirə keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, müşavirəni açan Baş nazir Ə.Əsədov ötən illərdən fərqli olaraq cari ilin may-iyun aylarında ölkəmizin bəzi rayonlarında hava şəraitinin qeyri-sabit keçdiyini, yağıntıların miqdarının artdığını, əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv və güclü olduğunu qeyd edib.

Diqqətə çatdırılıb ki, əsasən iyun ayında respublikanın əksər ərazilərində çaylara sel sularının daxil olması nəticəsində bir sıra çaylarda sululuq artıb, sel və daşqınlar baş verib.

Təbii fəlakət baş verən rayonlar üzrə aidiyyəti qurumlar tərəfindən zəruri və təxirəsalınmaz tədbirlər görülüb, ərazilərə xüsusi texnika və canlı qüvvə cəlb olunub. Görülmüş işlər nəticəsində operativ olaraq çayların məcrası dəyişdirilib, yuyularaq dağıdılan yol infrastrukturu bərpa olunub.

Bildirilib ki, təbii fəlakət nəticəsində fərdi yaşayış evlərinə, həyətyanı sahələrə, həmçinin əkin sahələrinə və fermer təsərrüfatlarına, eyni zamanda, digər infrastruktura dəymiş ziyanın qiymətləndirilməsi ilə bağlı tədbirlər davam etdirilir. Baş nazir Ə.Əsədov bu istiqamətdə zəruri və operativ tədbirlərin davam etdirilməsi ilə bağlı müvafiq tapşırıqlarını verib.

# AZƏRBAYCAN İLƏ ABŞ ARASINDA ƏLAQƏLƏR BİR SIRA SAHƏLƏRDƏ STRATEJİ TƏRƏFDAŞLIQ SƏVİYYƏSİNƏ YÜKSƏLİB



“Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələr dostluq və əməkdaşlıq zəminində dinamik inkişaf edərək bir sıra sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Qlobal çağırışlara, beynəlxalq terrorizmə qarşı mübarizə, təhlükəsizlik məsələlərində fəal və səmərəli birgə işimiz, iqtisadi sahədə geniş spektrdə qarşılıqlı fəaliyyətimiz ikitərəfli münasibətlərimizi səciyyələndirən başlıca amillərdəndir”.

Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenə milli bayram münasibətilə ünvanlandığı təbrik məktubunda yer alıb.

Enerji sahəsindəki əhəmiyyətli əməkdaşlığımızın məmnunluq doğurduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: “Birləşmiş Ştatlar Azərbaycanın enerji strategiyasını bütün mərhələlərdə qətiyyətlə və davamlı şəkildə dəstəkləmişdir. Biz enerji təhlükəsizliyinin təmin olunmasında ölkələrimizin sıx əməkdaşlığını, reallaşdırdığımız irimiqyaslı transmilli layihələrdə ABŞ-ın hərtərəfli dəstəyini xüsusi dəyərləndiririk”.

# “Neft-qaz sənayesi iqlim dəyişikliyi ilə bağlı problemlərin həllində aparıcı rol oynayır”



“Neft-qaz sənayesi iqlim dəyişikliyi ilə bağlı problemlərin həllində aparıcı rol oynayır. Bu baxımdan qlobal enerji səhnəsində həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan dövlətlərin, eləcə də bütün maraqlı tərəflərin iştirakı ilə dialoqun təşviq edilməsi çox vacibdir”.

Bu fikirləri Vyanada keçiriləcək OPEC-in 8-ci Beynəlxalq seminarından əvvəl BƏƏ-nin rəsmi WAM informasiya agentliyinə müsahibəsində təşkilatın baş katibi Haysam Əl-Qays söyləyib. Onun sözlərinə görə, hazırda əsas məqsəd bütün enerji mənbələri və texnologiyalarını nəzərə alaraq, bütün millətlərin maraqlarına hörmət edərək, bütün fikirləri dinləyərək və qlobal karbon emissiyalarını azaltmaq üçün bir çox vasitələrdən istifadə edərək enerji davamlılığına nail olmaqdır. Baş katib əlavə edib: “Enerji davamlılığı ilə bağlı çağırışlar arasında enerji təhlükəsizliyi, xərclərin münasibliyi və emissiyaların azaldılması imperativi ilə bağlı məqsədlər əsas yer tutur. OPEC sərmayələri karbon tutma, utilizasiya və saxlama, dairəvi karbon iqtisadiyyatı, metan emissiyalarının azaldılması və məşəldə yandırılması, hidrogen istehsalı və bərpa olunan enerji mənbələrinin neft və qaz əməliyyatlarına inteqrasiyası kimi emissiyaların azaldılması texnologiyalarına yönəldilməsinin zəruriliyinə inanır. Hazırda enerji səmərəliliyini artırmaq üçün ağıllı texnologiyalardan istifadə edilir”.

Əl-Qays qeyd edib ki, 2022-ci ildə orta qlobal neft hasilatı gündəlik 100 milyon barelə, təbii qaz istehsalı isə 4000 milyard kubmetrə çatıb. OPEC-in proqnozları 2045-ci ilə qədər qlobal iqtisadiyyatın iki dəfə artacağını göstərir. Dünya əhalisinin sayı çoxalacaq və beləliklə, bütün enerji mənbələrinə, o cümlədən neft və təbii qaza tələbat da təxminən 23 faiz artacaq.

# OPEC: 2045-ci ilə qədər neftə tələbat gündəlik 110 milyon barelə çatacaq



Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) 20 il sonra qlobal neft tələbinin gündəlik 110 milyon barelə yüksələcəyini, dünyanın enerji tələbatının isə 23 faiz artacağını açıqlayıb.

Bu barədə OPEC-in baş katibi Haysam əl-Qays məlumat verib.

Haysam əl-Qays neftdən asılılığın yaxın gələcəkdə də davam edəcəyini bildirib: “Biz 2045-ci ilə qədər qlobal neft tələbinin gündə 110 milyon barelə yüksələcəyini proqnozlaşdırırıq.

O vaxta qədər neftin qlobal enerji balansında payı 29 faiz səviyyəsində olacaq”.

Yaşıl enerjiyə qoyulan bütün sərmayələrə baxmayaraq, neftdən asılılığın davam edəcəyinə diqqət çəkən əl-Qays deyib: “2030-cu ilə qədər qlobal inkişafın davam etməsi nəticəsində dünyada yarım milyard insanın şəhərlərə köçəcəyini təxmin edirik. Beləliklə, dünyanın daha çox neftə ehtiyacı olacaq”.

OPEC-in baş katibi bərpa olunan enerji ilə bağlı fikirlərini də bölüşüb. Bərpa olunan enerji mənbələrinin gələcəkdə dünyanın enerji kompleksində daha böyük rol oynayacağını qeyd edən baş katib, OPEC-ə üzv olan bəzi ölkələrin bu sahəyə artıq “əhəmiyyətli investisiyalar yatırdığını” diqqətə çatdırıb.

# “Şəfəq” GES layihəsi üzrə danışıqlar artıq yekunlaşmaq üzrədir



“Cəbrayılda 240 meqavat gücündəki “Şəfəq” günəş elektrik stansiyası (GES) layihəsi üzrə danışıqlar artıq yekunlaşmaq üzrədir”. Bu sözləri jurnalistlərə açıqlamasında BP-nin Xəzər regionu üzrə kommunikasiyalar və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib.

O bildirib ki, bütün mümkün hazırlıq prosesləri bitmək üzrədir: “Ümid edirik ki, son məqamlar olan texniki və kommersiya işləri də bitdikdən sonra yaxın zamanda bu layihənin yekun investisiya qərarını elan edə biləcəyik”.

B.Aslanbəyli, həmçinin bildirib ki, BP neft-qaz layihələri ilə bərabər, bərpa olunan enerji istiqamətində də öz strategiyasında əsaslı dəyişikliklər edir: “Yeni strategiyamız bu iki ənənəvi - neft-qaz resursları və yeni bərpa olunan enerji resursları arasında seçim etmək deyil, hər iki istiqamətdə fəaliyyətimizi davam etdirməkdir. Bu istiqamətdə də işlərimiz paralel şəkildə həyata keçirilir. Azərbaycandakı fəaliyyətimiz isə bunun ən gözəl nümunəsidir”.

Xatırladaq ki, 2021-ci ilin iyunun 3-də Energetika Nazirliyi və BP arasında Zəngilan/Cəbrayıl rayonu ərazisində 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair icra müqaviləsi imzalanıb. Müqavilə çərçivəsində əməkdaşlıq günəş enerji layihəsinin texniki və kommersiya aspektində qiymətləndirilməsini, stansiyanın layihələndirilməsini, maliyyələşdirilməsinin təmin edilməsi və yekun investisiya qərarının qəbulu kimi istiqamətləri əhatə edir. 2022-ci il iyunun 4-də Energetika Nazirliyi və BP arasında Cəbrayılda 240 MVt gücündə günəş elektrik stansiyası layihəsinin birgə həyata keçirilməsi ilə bağlı növbəti addımların atılması məqsədilə 2021-ci ilin iyun ayında bağlanmış İcra Müqaviləsinə Əlavə imzalanıb. Belə ki, bu sənəd "Şəfəq" adlı günəş elektrik stansiyası layihəsinin reallaşdırılması istiqamətində birgə fəaliyyəti yekunlaşdırmaq üçün görüləcək tədbirləri əks etdirir.

# Azərbaycan OPEC-in Vyanada keçiriləcək seminarında təmsil olunub

Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov OPEC-in “Dayanıqlı və inklüziv energetika keçidinə doğru” mövzusunda 8-ci beynəlxalq seminarında iştirak edib.

Seminar iyulun 5-6-da Vyanada (Avstriya) təşkil olunub.

Seminarın proqramına əsasən, P.Şahbazov iyulun 5-də keçirilməsi planlaşdırılan “Bazarın sabitliyi və enerji təhlükəsizliyi” adlı nazirlər sessiyasında iştirakçı qismində elan edilib.

Sessiyanın iştirakçıları siyahısında, həmçinin 2023-cü ildə OPEC konfransının prezidenti, Ekvatorial Qvineyanın mədənçilik və karbohidrogenlər naziri Antonio Oburu Ondo, BƏƏ-nin energetika və infrastruktur naziri Suhail bin Məhəmməd əl Mazrui və nigeriyalı nümayəndə (daimi nümayəndə, Nigeriyanın Neft Ehtiyatları Nazirliyi) Qabriel Tanimu Aduda yer alıblar.

Qeyd edək ki, OPEC-in 8-ci beynəlxalq seminarı energetika keçidi ilə bağlı enerji təhlükəsizliyi, texnoloji innovasiyalar, ekoloji məsələlər, davamlı inkişaf, enerji siyasəti, eləcə də qlobal iqtisadiyyatda genişmiqyaslı tendensiyalar kimi əsas məsələlərə həsr olunacaq.

OPEC 1969-cu ildən bəri seminarlar təşkil edir. Lakin hazırkı beynəlxalq seminarlar silsiləsindən olan ilk seminar 2001-ci ildə keçirilib, onun ardından isə 2004, 2006, 2009, 2012, 2015 və 2018-ci illərdə növbəti iterasiyalar gəlib.

# SDU-da elmi-praktiki seminar keçirilib

***İyulun 3-də Sumqayıt Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş "Müasir Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin aktual problemləri və onların həllində iqtisadçı alimlərin rolu" mövzusunda elmi-praktiki seminar keçirilib.***

Elmi-praktiki seminarda **Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik, Milli Məclisin deputatı Ziyad Səmədzadə, Sosial İnkişaf Mərkəzinin İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Vüqar Bayramov, Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, əməkdar müəllim Məhiş Əhmədov və universitetin professor-müəllim heyəti iştirak edib.**





**Elmi-praktiki seminarı SDU-nun Elm və innovasiyalar üzrə prorektoru, professor Ramazan Məmmədov açaraq universitetin rektoru, professor Elxan Hüseynovun adından qonaqları salamlayıb və onları universitetdə görməkdən məmnunluğunu ifadə edib.**

Elmi-praktiki seminarın əhəmiyyətindən bəhs edən prorektor bildirib ki, möhtərəm Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncam imzalayıb. Bu məqsədlə SDU-da silsilə tədbirlər keçirilir. İqtisadiyyat və idarəetmə fakültəsinin təşkilatçılığı ilə keçirilən bu seminar Azərbaycanın milli iqtisadiyyatının formalaşmasında Heydər Əliyevin misilsiz xidmətlərini önə çıxarır.

Professor Ramazan Məmmədov onu da qeyd edib ki, bu gün Azərbaycan beynəlxalq aləmə sürətlə inteqrasiya edən, dinamik iqtisadi inkişafını və etibarlı siyasi sabitliyini təmin etmiş müstəqil bir dövlətdir. Artıq dünya birliyi Azərbaycanı mötəbər kürsülərdən öz sözünü deməyə, öz haqlı mövqeyini bildirməyə və qorumağa qadir, zəngin iqtisadi potensiala malik bir dövlət kimi tanıyır. Azərbaycanı hərtərəfli tərəqqi yoluna çıxaran Ümummilli Lider Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrün nailiyyətləri göz önündədir. İctimai-siyasi sabitlik, güclü iqtisadiyyat, möhkəm sosial təsisatlar, qüdrətli ordu, regionda lider mövqe, beynəlxalq aləmdə nüfuz - bütün bunlar günümüzün reallığıdır. Prorektor onu da vurğulayıb ki, üç il bundan öncə qazandığımız Zəfər Cənubi Qafqazın və bütövlükdə region ölkələrinin gələcək inkişafı üçün də yeni imkanlar açmışdır. Dayanıqlı sülh və sabitliyin təmin edilməsi bölgə ölkələri arasında iqtisadi əməkdaşlığın dərinləşməsi üçün yeni fürsətlər yaratmaqla yanaşı, bütövlükdə bölgənin dünya iqtisadiyyatına inteqrasiyasının da sürətlənməsinə imkanlar yaradır.

**Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik, Milli Məclisin deputatı Ziyad Səmədzadə** *"Müstəqil Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin yaradılmasında Heydər Əliyevin misilsiz rolu və müasir dövrdə bu istiqamətdə iqtisadçı-alimlərin strateji vəzifələri"* mövzusunda geniş məruzə edərək bildirib ki, Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsi, əhalinin rifah halının yaxşılaşdırılmasının əsas şərtlərindən biri respublikanın iqtisadi potensialıdır. Vaxtilə Ulu Öndər müəllifi olduğu milli inkişaf strategiyasında iqtisadi sahədə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Akademik onu da qeyd edib ki, Ulu Öndərin hakimiyyətə gəldiyi birinci dönəmdə - ötən əsrin 70-ci illərinə kimi, Azərbaycan, əsasən, aqrar ölkə statusu daşıyırdı. Respublikamızda istehsal olunan milli məhsulun böyük bir hissəsi aqrar bölmənin payına düşürdü. Ulu Öndərimizin rəhbərliyi altında həyata keçirilən məqsədyönlü və ardıcıl işlər nəticəsində Azərbaycan aqrar ölkədən sənaye respublikasına çevrildi. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi siyasət strategiyası bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir, respublikamızın dünya miqyasında nüfuzu daha da artmışdır. Prezident cənab İlham Əliyevin həyata keçirdiyi tədbirlər, imzaladığı fərman və sərəncamlar, xalqla birbaşa ünsiyyətdə olması Ümummilli Liderimiz tərəfindən başlanılmış işlərin məntiqi davamıdır. Bu gün dövrün tələblərinə uyğun olaraq, iqtisadi islahatların kompleks və əlaqəli şəkildə aparılması, proqnozlar əsasında formalaşdırılmış dövlət proqramlarının, yerli, regional və beynəlxalq investisiya layihələrinin həyata keçirilməsi dünya iqtisadiyyatına inteqrasiya ilə əldə edilmişdir. Bütün bunların məntiqi nəticəsidir ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və mövqeyi ilbəil artmaqdadır.

**Milli Məclisin deputatı Vüqar Bayramov** *"Azərbaycanın iqtisadi inkişaf hədəflərinin əsaslandırılmasında elmi-iqtisadi araşdırmaların rolu"* mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində özünə layiqli yer tutmasında və ayrı-ayrı dövlətlərlə əlaqələrinin qurulmasında və inkişafında beynəlxalq münasibətlər olduqca vacib rol oynayır. Bu mənada ölkəmizin yürütdüyü xarici siyasət kursu beynəlxalq təşkilatlara münasibətdə pozitiv məcraya yönəlib. Azərbaycanın beynəlxalq nüfuzu, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır. Azərbaycan dünyada, beynəlxalq arenada özünü etibarlı tərəfdaş və etibarlı dost kimi təsdiq edə bilmişdir. Təsadüfi deyildir ki, beynəlxalq təşkilatlarda Azərbaycana olan rəğbət göz qabağındadır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, əməkdar müəllim Məhiş Əhmədov** *"Azərbaycanda iqtisad elmində fundamental tədqiqatların təşkili və səmərəli aparılmasının müasir problemləri"*, **SDU-nun Dünya iqtisadiyyatı və marketinq kafedrasının professoru Şəfa Əliyev** *"Sosial-iqtisadi inkişafın aktual problemlərinin həlli yollarının müəyyənləşdirilməsində konseptual elmi-iqtisadi yanaşmaların formalaşdırılması prioritetləri"* mövzularında məruzə ediblər. Onlar qeyd ediblər ki, Azərbaycan iqtisadiyyatda dayanıqlı inkişaf modelini tərənnüm edən ölkələr sırasındadır. Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir.

Seminarın sonunda akademik Ziyad Səmədzadənin "Azərbaycan iqtisadiyyatı 100 ildə" beşcildliyinin Sumqayıt Dövlət Universitetinin iqtisadçı-tədqiqatçı alimlərinə təqdimatı olub.

## Azərbaycan "Səmərəli Enerji Keçidinin Təşviqi-2023" hesabatında 32-ci pilləyə yüksəlib




Dünya İqtisadi Forumunun "Səmərəli Enerji Keçidinin Təşviqi-2023" hesabatında Azərbaycan 32-ci pilləyə yüksəlib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) İqtisadi təhlil şöbəsinin müdir müavini Günay Quliyeva hesabatı AZƏRTAC-a şərh edərək bildirib ki, bu irəliləyiş Azərbaycanda maliyyə investisiyaları, infrastruktur və innovasiyalar da daxil olmaqla, enerji keçidinə hazırlığın əsas parametrləri üzrə görülən tədbirlərin nəticəsidir.

G.Quliyevanın sözlərinə görə, "Səmərəli Enerji Keçidinin Təşviqi" adlı illik hesabatda 120 ölkənin dayanıqlı və səmərəli enerji sisteminə doğru irəliləmək üçün göstərdiyi səylər qiymətləndirilir. Hesabatda son 10 il ərzində ən yüksək irəliləyiş göstərən ölkələr sırasında olan Azərbaycanın iqtisadi inkişafla ekoloji dayanıqlılığın balanslaşdırılmasına sadiq olduğu vurğulanır.

Hesabatda qeyd edilir ki, aparıcı enerji istehsalçısı olan Azərbaycan külək və günəş enerjisi kimi bərpa olunan mənbələrə əhəmiyyətli sərmayələr yatırmaqla, tükənən yanacaqlardan asılılığı azaltmaqla və enerji portfelini şaxələndirməklə öz nəhəng enerji resurslarından strateji şəkildə istifadə edir. Bütün bu səylər sayəsində Azərbaycan qlobal enerji təhlükəsizliyində əsas oyunçulardan birinə çevrilib.

Qeyd edək ki, Azərbaycan 2022-2023-cü illər arasında Enerji Keçid İndeksində ən yüksək irəliləyiş edən ölkələr sırasındadır. Bu nailiyyət Enerji Keçid İndeksində qlobal orta göstəricini üstələyən Azərbaycanın enerji keçidinə fəal yanaşmasını əks etdirir.

G.Quliyevanın sözlərinə görə, enerji təhlükəsizliyi bütün dünyada hökumətlər və iqtisadi oyunçular üçün əsas narahatlıq olaraq qalır və onun təsiri təchizat zəncirlərində, ölkələrdə və beynəlxalq sistemlərdə əks olunur. Bildirilir ki, Azərbaycan Səudiyyə Ərəbistanı və BƏƏ kimi digər əsas yanacaq ixracatçıları ilə birlikdə öz qaz ehtiyatlarından səmərəli istifadə etməsi nəticəsində enerji təhlükəsizliyində yüksək göstəriciyə malikdir.

Digər tərəfdən, Azərbaycan Çin, Vyetnam, Bosniya və Herseqovina kimi bərpa olunan enerjiyə ÜDM nisbətində ən çox investisiya yatıran ölkələr sırasındadır.

## Pirallahı Sənaye Parkında Tailand-Azərbaycan birgə müəssisəsi yaradılacaq

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Pirallahı Sənaye Parkında yeni rezident - "Supreme Pharmatech Azerbaijan" MMC qeydiyyata alınıb, bununla da sənaye parkının rezidentlərinin sayı 6-ya çatıb.

İZİA-dan bildirilib ki, Tailand-Azərbaycan birgə şirkəti olan "Supreme Pharmatech Azerbaijan" MMC tərəfindən sənaye parkının 2,5 hektar ərazisində bioloji aktiv qida əlavələrinin və dərman vasitələrinin istehsalını həyata keçirəcək müəssisə inşa ediləcək. İnvestisiya həcmi 8,3 milyon manat təşkil edən müəssisədə 56 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

Müəssisədə istehsal olunan məhsulların daxili bazara satılması ilə yanaşı, "Made In Azerbaijan" brendi altında ixracı da planlaşdırılır.

## KOBİA-nın İdarə Heyətinin sədri ilə Böyük Britaniyanın kiçik biznes üzrə müvəkkili arasında görüş keçirilib



London şəhərində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov və Böyük Britaniyanın Kiçik Biznes üzrə müvəkkili Liz Barkli arasında görüş keçirilib.

KOBİA-dan bildirilib ki, görüşdə KOB-ların qarşılaşdıqları çətinliklər və onların həlli yolları, KOB-lara dəstək sahəsində fikir mübadiləsi aparılıb. Həmçinin görüşdə KOBİA-nın fəaliyyəti, o cümlədən sahibkarların maraqlarının müdafiəsi sahəsində Agentliyin dəstəyi və bu istiqamətdə həyata keçirilən tədbirlər barədə məlumat verilib.

## Neftçalada paylayıcı şəbəkələrin tikintisi davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiqlədiyi regionların sosial iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq Neftçala şəhərində əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə paylayıcı şəbəkələrin tikintisi davam etdirilir. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən icra olunan layihə çərçivəsində şəhərdə içməli su şəbəkəsinin yenidən qurulması işləri yekunlaşmaq üzrədir. Rayonun Bankə qəsəbəsində də mərkəzləşdirilmiş içməli su şəbəkəsi yaradılır.



Dövlət Su Ehtiyatları Agentliyindən bildirilib ki, Neftçala şəhərinin və rayonun bir sıra kəndlərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə 2020-ci ildə Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə 40 kilometr uzunluğunda magistral su kəməri və Salyan şəhəri yaxınlığında həcmi 7500 kubmetr olan su anbarı inşa edilib. 2020-ci ilin noyabr ayında həmin kəmərdən Neftçala şəhərinə suyun verilməsi təmin olunub. Şəhərin su təchizatında dayanıqlığın təmin olunması, həmçinin içməli sudan ciddi əziyyət çəkən digər yaşayış məntəqələrinin su təminatının yaxşılaşdırılması məqsədilə Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə 38 kilometr uzunluğunda ikinci magistral su kəməri çəkilib və 2023-cü ilin may ayında istismara verilib.

Gələcəkdə Neftçala şəhərində 8,6 kilometr kanalizasiya kollektorunun və məhsuldarlığı sutkada 4000 kubmetr olan tullantı sutəmizləyici qurğunun inşası nəzərdə tutulur.

# Neyron şəbəkələri və süni intellekt (GPT-4)

**(əvvəli ötən sayımızda)**

2021-i ildə təbii dil açıqlamalarından görüntülər generasiya edən "DALL-E" adını məşhur rəssam Salvador Dali və WALL-E adlı animasiya filmindən almışdır.

2022-ci ilin dekabr ayında GPT-3.5 əsaslı söhbət robotu ChatGPT pulsuz olaraq elan edildi. İlk 5 gündə 1 milyondan çox şəxs qeydiyyatdan keçdi.

7 Fevral 2023-cü ildə Microsoft ChatGPT ilə eyni əsaslı süni intellekt texnologiyasını Microsoft Bing, Egde, Microsoft 365-də inkişaf etdirdiyini elan etdi.

Π(pi) günündə, yəni 14 mart 2023-cü ildə OpenAİ ChatGPT Plus-un motoru olan GPT-4-ü elan etdi.

Təxmini qısa tərifi belə elan olundu: Həqiqi yaşamda insanlardan daha az qabiliyyətli olsa da, bəzi məslək və akademik qiymətləndirmələrdə insan səviyyəsində performans göstərə bilən, rəsm və mətnləri anlayıb, mətn şəklində cavab verə bilən çox yönlü bir modeldir.

GPT-4 bir çox imtahanlarda sınaqdan keçirildi və bir çox insanın çatmayacağı və az insanın çata biləcəyi nəticələr əldə etdi. Bəzi beynəlxalq imtahan nəticələrini OpenAİ-in öz rəsmi saytına istinadən cədvəldə bir qismini göstərmək mümkündür. Daha böyük siyahı ilə rəsmi mənbədən tanış olmaq olar (cədvəl 1).

Çox maraqlı məqamlardan biri də odur ki, GPT-4-ün inkişafı üçün 6 ay sərf edildi. Bir çoxumuz GPT 3.5-dəki üstünlükləri tam test edib qurtarmadan, yeni versiya 100 səhifəlik texniki sənədi ilə birlikdə elan edildi. Biz ondan öyrənməyə başlayarkən, o da bizdən öyrənərək, daha da böyüməyə başladı. Demək mümkündür ki, yeni versiyanın bu qədər sürətlə ərsəyə gəlməsində hər kəsin ChatGPT-yə olan axını da ciddi rol oynadı.

GPT-3.5-dən yazaraq, suallar verdiyimiz halda GPT-4-də həm də şəkil və görüntüləri təqdim edərək öyrənmək, sual, fikir soruşmaq mümkündür. İnternetdə dəqiq ölçülməsi çətin olan, amma hər gün böyüyən dataları insanların araşdırması və bu işi manual olaraq etmək, ciddi zaman itkisidir. İnsanların uzun müddət diqqətli qalma imkanının olmamasını və yorula bilmə xüsusiyyətlərini də nəzərə alsaq, manual tədqiqatları çox çətin hesab etmək olar. GPT-4 sizin araşdırmaq istədiyiniz məlumatları data okeanı içərisindən araşdırır və sizə cavab verir, həm də sizə uyğun, sualın səviyyəsinə görə. Daha detallı suallara daha detallı cavablar verir. Proqramçılar, müəllimlər, tədqiqatçılar, data analitikləri, vəkillər üçün əvəzedilməz bir alət sayılır. GPT-ni digər bənzərlərindən fərqləndirən insan dilinə daha yaxın olmasıdır. Sanki bir **insan kimi** cavab verir, sanki insan cavab yazırmış kimi cavablar verərək, yazı haqqında öyrənmək olar. GPT-3 ilə GPT-4-ün bəzi parametrlərini qarşılaşdırmaq mümkündür. GPT-3-ün maşın öyrənmə parametri (iş görə bilmə qabiliyyəti) 175 milyard olduğu qeyd olunur. GPT-4-də isə bu parametr 100 trilyondan çox olduğu bildirilir.

GTP-4 kod yaza bilər, işinizi necə inkişaf etdirəcəyinizi deyə bilər, tövsiyələr verə bilər, hətta oynamaq istədiyiniz oyunlar varsa, onları da sizin üçün yaza bilər. Soyuducunu açıb, şəklini çəkdiyinizdə soyuducuda olan ərzaqlarla hansı yeməkləri hazırlamaq imkanını və reseptini verə bilər.

*Cədvəl 1*

| Simulated exams | GPT-4 | GPT-4 (no Vision) | GPT-3.5 |
|---|---|---|---|
| Uniform Bar Exam (MBE+MEE+MPT)1 | 298/400 | 298/400 | 213/400 |
| LSAT | 163 | 161 | 149 |
| SAT Evidence-Based Reading & Writing | 710/800 | 710/800 | 670/800 |
| SAT Math | 700/800 | 690/800 | 590/800 |
| Graduate Record Examination (GRE) Quantitative | 163/170 | 157/170 | 147/170 |
| Graduate Record Examination (GRE) Verbal | 169/170 | 165/170 | 154/170 |
| Graduate Record Examination (GRE) Writing | 4/6 | 4/6 | 4/6 |
| USABO Semifinal Exam 2020 | 87/150 | 87/150 | 43/150 |
| USNCO Local Section Exam 2022 | 36/60 | 38/60 | 24/60 |
| Medical Knowledge Self-Assessment Program | 75% | 75% | 53% |
| Codetorces Rating | 392 | 392 | 260 |
| AP Art History | 5 | 5 | 5 |
| AP Biology | 5 | 5 | 4 |
| APCalculus BC | 4 | 4 | 1 |

yazması ciddi təsiredici məqamdır. Dil emalı o qədər yüksək səviyyədə və axıcıdır ki, insandan fərqləndirmək bəzi hallarda çətindir, hətta bəzi insanlar öz fikirlərini izah etməkdə çətinlik çəkdiklərini düşünsək, bəzi insanlardan daha üstün tərəflərini də görmək mümkündür. Tarixdə ilk dəfə dili bizim dilə bənzəyən bir həll ilə qarşılaşırıq.

Bu versiyada 25000 söz daxil etmək mümkündür. Yəni 100 səhifəlik bir yazını verərək, konspekt tələb etmək olar, mətndəki mövzunu hər kəsin başa düşəcəyi dildə izahını istəmək olar. Hətta mətnlə bağlı konkret suallarla hansı yeməkləri hazırlamaq imkanını və reseptini verə bilər.

Heç bir vəkilə ehtiyac olmadan lazımı sənədləri hazırlaya bilər, məktublar yaza bilər, gələn uzun məktubları qısaca sizə açıqlaya bilər, sizin istədiyiniz səviyyədə və tonda məktublar və yazılar yaza bilər.

Toplantılarınızı planlaya bilər, toplantılara qulaq asaraq, lazımı qeydlər və başlıqlar çıxara bilər.

GPT-4 öyrənmə, texnologiya, yazma, tarix, riyaziyyat, elm, məsləhət, koder, biznes kimi məsələlərdə GPT 3.5-dən 40% daha üstün nəticəyə sahibdir.

Məsələn: Be My Eyes (Gözlərim ol) adlı bir qurum GPT-4-ü öz aplikasiyalarına əlavə edəcəyini açıqladı. Görmə qabiliyyəti zəif olanlar üçün imkan yaranır ki, telefonun kamerasına göstərilən görüntülərin izahını versin. Məsələn, paltar mağazasına girən görmə qabiliyyəti zəif olana paltarlar haqqında təfsilatlı məlumat vermək kimi.

GPT-4 hüquq sahəsində də yüksək nəticələrə sahibdir. Bu gələcəkdə robot vəkillərin yaranma ehtimalını da özü ilə gətirir.

GPT-4 doğruluq və dil emalı kimi ən üstün nəticələrə sahibdir. Hal-hazırda bütün dillərdə danışa bilsə də, ən müvəffəq dil 85.5% ilə ingilis dili hesab olunur. GPT-4 şəkildəki görüntülərin zarafat və ya ciddi mövzu olduğunu da anlayaraq, detallı açıqlama verə bilir.

**Bəzi təhdidlər mövcuddur və ciddi narahat edir**

100 səhifəlik texniki sənəddə belə sistemin bəzi qabiliyyətlərini təxmin etməyin hələ də çətin olduğu deyilir. Etibarlı olmayan məlumatları verdikdə doğru məsləhətlər verməyə bilər. Getdikcə rəqabətə görə bəzi məqamların gizlədildiyi də görünməkdədir. Əsasən Mikrosoft şirkətinin sərmayələrindən sonra gizliliyin çoxaldığını müşahidə etmək mümkündür.

Məktəblərdə şagirdlərin imtahanda köçürməsinin qarşısını almaq üçün, bəzi məktəblər ChatGPT-ni qadağan etməsi də mümkün görünür.

12-ci səhifədə bildirilir ki: Etibarsız məlumatlar verildiyində model cinayət mövzusunda tövsiyə vermək kimi arzuolunmaz məzmun yarada bilər.

Dünyada müxtəlif qurumlar güc və iqtidar üçün istifadə edə bilər. Hətta güc və iqtidarın verdiyi xüsusi cəzbedicilikdən özünün də təsirlənə biləcəyi istisna edilmir. 14-cü səhifədə bu məsələdən bəhs olunur. Uzunmüddətli planlar yaratmaq, plana uyğun hərəkət etmək, güc və resurs toplamaq kimi davranışlar göstərə bilər. Eyni zamanda qurum güc arama davranışı ilə bağlı xüsusi çalışdığını da vurğulayır.

İnsanın hər yönü ilə təqlid edən süni intellektin pis niyyətli insanları da təqlid etmək imkanı vardır. Təbii ki, süni intellekt əxlaqsız və pis niyyətli insanların da öyrənib təqlid edə bilər, onlara uyğun tövsiyələr verə bilər. Manipulyasiyalar hər zaman mümkündür.

Mənfi məqsəd və risklərdən qorunmaq üçün, mütləq Süni İntellekt ilə bağlı etik mühəndis qrupu fəaliyyət göstərməlidir. Bu komanda yenilik edərkən, necə məsuliyyətli davranmaq üzərində işləməlidir. Mühəndislər süni intellektin hansı zərərlərə səbəb ola biləcəyini təxmin etməli və sonra azaldılması üçün təkliflər verməlidir. Xoşagəlməz hallardan biri odur ki, bəzən şirkətlər bir-biri ilə rəqabətə, yarışa qoşulur və bu məsələni unudurlar. Əks halda sosial şəbəkələrin yaranması ilə cəmiyyətlərdə fərqli axınlar və davranışlar yarandığı kimi, bilmədiyimiz qeyri-müəyyən xoşagəlməz, ciddi narahatedici yeni axınlar da bizi gözləyir. Qadağa məsələnin həlli deyil, amma məntiqli çıxış yolları tapmaq mümkündür. Qadağa bütünlükdə ziyanlı sayılırsa, məntiqlidir. Əgər məsələnin ciddi faydalı tərəfləri varsa, bundan istifadə edilməli və dünyanın inkişaf tendensiyasından geri qalmamalıyıq. Mənfi məsələlərlə mübarizə apararaq, mübarizə immuniteti qazanmağın daha münasib yol olduğunu düşünürəm. Ümid edirəm ki, dünyada baş verən və sürətlə davam edən son yeniliklər insanların hər zaman faydalanmasına xidmət edəcəkdir.

**Bəhruz Əliyev,**
**İnformasiya Texnologiyaları üzrə mühəndis-ekspert, tədqiqatçı**



# Sadələşdirilmiş vergiödəyiciləri kimlərdir?

Avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını həyata keçirən şəxslər, idman mərc oyunlarının operatoru və idman mərc oyunlarının satıcıları, habelə lotereya təşkilatçısı və lotereya biletlərinin satıcıları olan şəxslər, mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən fiziki şəxslər, mülkiyyətində olan torpaq sahələrinin təqdim edilməsini həyata keçirən fiziki şəxslər, vergini aylıq səbit dərəcəyə müvafiq əmsallar tətbiq edilməklə məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqı ilə birlikdə ödəyən fiziki şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququna malikdirlər.

Bu şəxslər hər il aprel ayının 20-dən gec olmayaraq, "Sadələşdirilmiş verginin bəyannaməsi"ni və ya bu hüquqdan istifadə etməyəcəyi barədə yazılı məlumatı uçotda olduğu vergi orqanına təqdim etməlidir. Bu halda seçilən metodun təqvim ilinin sonunadək dəyişdirilməsi hüququ olmur. Qeyd olunan müddətdə bəyannamə və ya yazılı məlumat təqdim edilmədikdə, vergi orqanı vergiödəyicisinin əvvəlki vergi ilində seçdiyi metodu tətbiq edir.

# "Azərbaycanda binalar tikilərkən zəlzələyə davamlılığı nəzərə alınır"

Bunu iyulun 4-də Xəzər dənizində baş vermiş zəlzələyə dair AMEA nəzdində RSXM-in baş direktoru, AMEA-nın müxbir üzvü, professor Qurban Yetirmişli mətbuat konfransında deyib. Onun sözlərinə görə, ölkəmizdə binalar tikilərkən 8 ballıq zəlzələyə davamlılığı da nəzərə alınır, layihələr buna əsasən hazırlanır.



Qurban Yetirmişli deyib ki, Azərbaycan seysmik zonada yerləşir və buna görə zəlzələlərin olması normaldır:

"Son zamanlar Azərbaycanda güclü zəlzələlərin baş verəcəyinə dair söz-söhbətlər yayılır. Kim deyir ki, Azərbaycanda zəlzələ olmayacaq? Ola bilər. Azərbaycan seysmoloji zonada yerləşir və buna görə binalar tikilərkən bu, nəzərə alınmalıdır".

# Kənd təsərrüfatı məhsullarının istehsalçısı olan hüquqi şəxslərin gəlirləri mənfəət vergisinə cəlb edilirmi?

Kənd təsərrüfatı məhsulu istehsalı ilə məşğul olan hüquqi şəxsə Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən dövlət büdcəsi vəsaiti hesabına ayrılan subsidiya məbləği mənfəət vergisinə cəlb edilirmi?

Dövlət Vergi Xidmətindən bildirilib ki, Vergi Məcəlləsinin 2023-cü il yanvarın 1-dən qüvvəyə minmiş müddəalarına əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslərin satışdankənar gəlirləri, kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar hüquqi şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına verilən subsidiyalar, həmçinin kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan hüquqi şəxslərin dividend gəlirləri - 2023-cü il yanvarın 1-dən 1 il müddətinə mənfəət vergisindən azaddır.

Qeyd olunanlara əsasən, dövlət büdcəsi vəsaiti hesabına kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi şəxsə ayrılan subsidiya məbləği hüquqi şəxsin satışdankənar gəlirlərinə aid edilməklə mənfəət vergisindən azaddır.

# Tarif Şurası dərman vasitələrinin qiymətlərinə yenidən baxacaq



"Dərman vasitələri haqqında" Qanuna dəyişikliklərdə əsas məqsəd dərman vasitələrinin çeşidinin artırılması və əlçatanlığın təmin olunmasıdır. Səhiyyə Nazirliyinin sifarişi əsasında Tarif Şurası dərman vasitələrinin qiymətlərinə yenidən baxacaq".

Bunu Milli Məclisin Səhiyyə komitəsinin iclasında səhiyyə nazirinin müavini Rasim İsmayılov deyib.

Ölkədə dərman vasitələrinin qiymətlərinin tənzimlənməsindən danışan nazir müavini Qanuna dəyişikliklərin vətəndaşlar üçün əhəmiyyətli olduğunu bildirib. Onun sözlərinə görə, dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi hər ölkəyə görə fərqlənir. "Fərq ondan ibarətdir ki, dərmanların satışı alıcının seçimi əsasında deyil, həkimlərin və ya əczaçının tövsiyəsi əsasında həyata keçirilir", – deyə Rasim İsmayılov vurğulayıb.

# "Alliance Business Centre" QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| QALIQLAR | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Binalar, tikillilar və qurğular | 203 875,24 | 213 280,94 |
| Maşınlar va avadanlıq | 35 628,67 | 43 766,74 |
| Nəqliyyat vasitələri | - | - |
| Digər əsas vəsaitlər | - | - |
| Qeyri-maddi aktivlər | - | - |
| **Cəmi** | **239 503,91** | **257 047,67** |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **-** | **-** |
| 1.3.1 Hazır mahsul | - | - |
| 1.3.2 Mallar | - | - |
| 1.3.3 Bitmamiş istehsal | - | - |
| 1.3.4 Sair ehtiyatlar | - | - |
| **Debitor borclar** | **170 402,74** | **17 345,13** |
| 1.4.1 Dövlət büdcəsinə (vergilər üzrə) | 166 531,58 | |
| 1.4.2 Sair debitor borclar | 3 871,16 | 17 345,13 |
| 1.4.2.1 o cümlədən, xarici borclar | | - |
| **Pul vəsaitləri** | **105 344,33** | **1 183,06** |
| **Səhmlər va iştirak payları üzra maliyyə qoyuluşları** | **-** | **-** |
| **Dövlət qiymətli kağızları** | **-** | **-** |
| **Kapitallaşdırma üçün aktivlar** | **1 027 875,58** | **-** |
| **Gələcək dövrün xərcləri** | **-** | **-** |
| **Digər aktivlər** | **164 022,66** | **153 101,08** |
| **Cəmi** | **1467 645,31** | **171 629,27** |
| **CƏMİ AKTİVLƏR** | **1 707 149,22** | **428 676,94** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 394 898,40 | 394 898,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 38 331,42 | 18 538,35 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 13 807,42 | 10 606,00 |
| Emissiya galiri | - | - |
| Kapital ehtiyatları | - | - |
| **CƏMİ KAPİTAL** | **447 037,24** | **424 042,35** |
| **ÖHDƏLİKLƏR** | | |
| Bank kreditlari | - | - |
| o cümlədən, xarici borclar | - | - |
| Alınmış avanslar | 21,98 | - |
| Dövlət büdcəsinə vergi öhdəlikləri | 0,00 | 4 634,59 |
| Törəmə (asılı) müassisələrə kreditor borcları | - | - |
| Sair kreditor borcları | 90,00 | |
| o cümlədən, xarici borclar | - | - |
| **Gələcək dövrün gəlirləri** | **-** | **-** |
| **Digər öhdəliklər** | **1 260 000,00** | |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **1 260 111,98** | **4 634,59** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **1 707 149,22** | **428 676,94** |

| Qalıqlar | Məbləğ, manatla | Məbləğ, manatla |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 259 222,72 | 206 742,75 |
| Satışın maya dəyəri | 184 690,52 | 122753,71 |
| **Ümumi Mənfəət** | **74 532,20** | **83 989,04** |
| Sair əməliyyat gəlirləri | **2 148,69** | **9 206,61** |
| İnzibati xərclər | 646,78 | 230,37 |
| Əməliyyat mənfəəti(zərəri) | 76 034,11 | 92 965,28 |
| Maliyyə gəlirləri | | 0,00 |
| Maliyyə xərcləri | | 0,00 |
| Fövqəladə gəlirlər | | 0,00 |
| Fövqəladə gəlirlər | | 0,00 |
| Amortizasiya ayırmaları, əsas vəsaitlərin təqdim edilməsi və ləğvi üzrə gəlirdən çıxılan xərclər | 17 543,76 | 26 995,09 |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 2 570,88 | 2 365,48 |
| Sair xərclər | 8 005,20 | 0,00 |
| Vergitutmadan əvvəl mənfəət(zərər) | **47 914,27** | **63 604,71** |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | | 40 431,77 |
| Mənfəət üzrə azadolma, güzəşt və mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri çıxılmaqla vergiyə cəlb olunan mənfəət | **47 914,27** | **23 172,94** |
| Mənfəət vergisi | 9 582,85 | 4 634,59 |
| Hesabat dövründə xalis mənfəət | **38 331,42** | **18 538,35** |
| **Mənfəətdə iştirak payı:** | | |
| Səhmdarların payı | 0,24 | 0,12 |
| Azlıqların payı | | |
| **Səhmdarların payına düşən bir səhmin mənfəəti:** | | |
| 1(bir) səhmin əsas mənfəəti | 0,19 | 0,09 |

| | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **01 yanvar 2021-ci il tarixə qalıq** | **394 898,00** | - | **10 606,00** | **405 504,00** |
| 2021-ci il üzrə xalis mənfəət | | | 18 538,35 | 18 538,35 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | - |
| Elan edilmiş dividendlər | | | | - |
| Maddələr arasında köçürmələr | | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | | | - |
| **01 yanvar 2022-ci il tarixə qalıq** | **394 898,40** | **-** | **29 144,35** | **424 042,75** |
| 2022-ci il üzrə xalis mənfəət | | | 38 331,00 | 38 331,00 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | - |
| Elan edilmiş dividendlər | | | - | - |
| Maddələr arasında köçürmələr | | | | - |
| Mənfəət və ehtiyatların istifadəsi | | | - 15 336,93 | - 15 336,93 |
| **01 yanvar 2023-ci il tarixə qalıq** | **394 898,40** | **-** | **52 138,42** | **447 036,82** |

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə mənfəət /zərər | 47 914,27 | 63 604,71 |
| Mənfəət vergisi üzrə xərclər | - 9 582,85 | - 4 634,59 |
| **Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər:** | | |
| • Əsas vəsaitlərin amortizasiyası | 17 543,76 | 26 995,09 |
| • Qeyri-maddi aktivlərin amortizasiyası | | |
| • Əsas vəsaitlərin satışından və xaricolmasından gəlirlər/zərərlər | | |
| **Dövriyyə kapitalında dəyişikliklər:** | | |
| • Ehtiyatlar üzrə artma/azalma | - | - |
| • Əməliyyat debitor borclarında artma/azalma | - 153 057,61 | - 11 419,80 |
| • Sair qısamüddətli aktivlərdə artma/azalma | 10 921,58 | 127 264,72 |
| • Sair maliyyə aktivləri | | |
| • Cari vergi öhdəlikləri | - 4 634,59 | - 6 494,71 |
| • Əməliyyat kreditor borclarında artma/azalma | 90,00 | - 2 664,00 |
| • Sair qısamüddətli öhdəliklərdə artma/azalma | 1 260 000,00 | - 73 201,48 |
| Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **1 169 194,56** | **119 449,94** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | - | - |
| Əsas vəsaitlərin alınması | | |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla, uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən, kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları, uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | | |
| Səhm alınması üçün pul vəsaitinin xaric olması | | |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | - | - |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **-** | **-** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Səhm buraxılışı | | |
| Kapital ehtiyatlarının dəyişməsi | | |
| Təsisçilərin borcunun bölüşdürülməmiş mənfəət hesabına əvəzləşdirilməsi | | |
| Mənfəətin istifadəsi | | |
| Dividendlər və buna oxşar ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | | |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | 1 169 194,56 | 119 449,94 |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **1 183,06** | **7 782,73** |
| **İl ərzində pul vəsaitlərinin və onların ekvivalentlərinin artması (azalması)** | 1 169 194,56 | 119 449,94 |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **105 344,33** | **1 183,06** |

## Azəri-Çıraq-Günəşli və Şahdəniz yataqları üzrə gəlirlər açıqlanıb

Cari ilin ötən 6 ayı ərzində Azəri-Çıraq-Günəşli və Şahdəniz üzrə gəlirlər 3 milyard 348 milyon ABŞ dolları həcmində olub.

Azərbaycan Respublikası Dövlət Neft Fondundan bildiriblər ki, qeyd olunan dövr ərzində "Şahdəniz" yatağından (qaz və kondensat) əldə olunan gəlir 1002 milyon ABŞ dolları olub.

"Şahdəniz" yatağı üzrə kondensatın satışından əldə olunan gəlir isə 210,851 milyon ABŞ dolları olub.

# Azərbaycanda əhalinin banklara borcu 10 milyard manata yaxınlaşır

İlk 5 ayda kredit qoyuluşları 1 milyard manatdan çox artıb.

31 May 2023-cü il tarixində bankların cəmi kredit portfeli (kredit qoyuluşları) 20 milyard 659 milyon 269 min manat təşkil edib.

Marja.az Mərkəzi Banka istinadən xəbər verir ki, aprel ayının sonu ilə müqayisədə mayda müştərilərin banklara borclu olduqları cəmi kreditlər 279 milyon 642 min manat artıb. O cümlədən, cəmi biznes kreditləri portfeli 62 milyon 848 min manat artaraq 11 milyard 170 milyon 805 min manata, istehlak kreditləri portfeli 152 milyon 186 min manat artaraq 6 milyard 224 milyon 527 min manata, ipoteka kreditləri portfeli isə 64 milyon 627 min manat artaraq 3 milyard 263 milyon 957 min manata yüksəlib. 2023-cü ilin ilk 5 ayı ərzində (yanvar-may) bankların cəmi kredit portfeli 1 milyard 64 milyon 914 min manat, o cümlədən biznes kreditləri 315 milyon 744 min manat, istehlak kreditləri 470 milyon 381 min manat, ipoteka kreditləri 278 milyon 798 min manat artıb.

Əhali tərəfindən alınan cəmi istehlak və ipoteka kreditləri 9 milyard 488 milyon 484 min manata çatıb.

Bank olmayan kredit təşkilatları və lombardlar tərəfindən verilən kreditlər nəzərə alınarsa, əhalinin kredit təşkilatlarına cəmi qalıq borcu 10 milyard manatdan çoxdur.

**Bankların kredit portfelinin strukturu barədə məlumat**




# "İMA-ENERGY" QSC-nin 31 dekabr 2022-ci il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | 31 dekabr 2022-ci il |
|---|---|
| **I. UZUNMÜDDƏTLİ AKTİVLƏR** | |
| **Torpaq, tikili və avadanlıqlar** | **1,762,379** |
| **Qeyri-maddi aktivlər** | |
| **Təxirə salınmış vergi aktivləri** | |
| **Uzunmüddətli debitor borcları** | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | **2,727,886** |
| Kapital qoyuluşları | 2,462,876 |
| qeyri-dövlət qiymətli kağızları | |
| sair maliyyə aktivləri | 265,010 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | |
| **Sair aktivlər** | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **4,490,265** |
| **II. QISAMÜDDƏTLİ AKTİVLƏR** | |
| **Debitor borcları:** | **4,390,880** |
| alıcılar və sifarişçilərlə hesablaşmalar | 4,390,880 |
| Vergilərlə bağlı hesablaşmalar | |
| asılı təşkilatlar üzrə | |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **121,925** |
| kassa | |
| hesablaşma hesabı | 120,498 |
| valyuta hesabı | 285 |
| digər hesablar | 1,142 |
| **Mal və material:** | **9,298,407** |
| Mal | |
| xammal və material | 9,298,407 |
| azqiymətli və tezköhnələn əşyalar | |
| **Sair qısamüddətli aktivlər:** | **3,122,021** |
| Verilmiş avanslar | 3,122,021 |
| gələcək hesabat dövrlərinin xərcləri | |
| təhtəl hesablar | |
| **Sair aktivlər** | **1,136,211** |
| ***Cəmi qısamüddətli aktivlər*** | **18,069,444** |
| **CƏMİ AKTİVLƏR** | **22,559,709** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 31 dekabr 2022-ci il |
|---|---|
| **I .KAPİTAL** | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | **5,010** |
| **Emissiya gəliri** | |
| **Kapital ehtiyatları:** | |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | |
| xüsusi məqsədli maliyyələşmələr | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **3,898,904** |
| hesabat dövründə xalis mənfəət (zərər) | 3,859,711 |
| mənfəət (zərər) üzrə düzəlişlər | |
| keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət/(məcmu zərər) | 4,143,206 |
| kapital ehtiyatları | |
| əldə edilmiş dividentlər | (4,052,160) |
| Mənfəətin digər istifadəsi | (51,853) |
| **CƏMİ KAPİTAL** | **3,903,914** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| **Sığorta ehtiyatları:** | |
| həyat sığortası sahəsi üzrə | |
| qeyri-həyat sığortası üzrə | |
| **Kreditor borcları:** | **7,201,847** |
| əməyin ödənilməsi üzrə | |
| büdcə üzrə | |
| sair kreditorlar | |
| bank kreditləri üzrə | 7,201,847 |
| **Sair uzunmüddətli öhdəliklər:** | |
| gələcək hesabat dövrünün gəlirləri | |
| alınmış avanslar | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | |
| **Sair öhdəliklər** | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **7,201,847** |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | **874,658** |
| **Kreditor borcları:** | **1,434,847** |
| malsatan və podratçılarla hesablaşmalar | 1,046,332 |
| əməyin ödənilməsi üzrə | 8,122 |
| Təhtəlhesab şəxslər | 379,495 |
| sair kreditorlar | 898 |
| **Sair qısamüddətli öhdəliklər:** | **7,968,390** |
| gələcək hesabat dövrünün gəlirləri | |
| alınmış avanslar | 7,968,390 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **1,176,053** |
| **Sair öhdəliklər** | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **11,453,948** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **18,655,795** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **22,559,709** |

| MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT | 01 yanvar 2022-ci il tarixdən 31 dekabr 2022-ci il tarixinədək olan dövr üzrə |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | **26,776,733** |
| İşlərin görülməsindən və malların satışından | 26,586,501 |
| Əsas vəsaitlərin təqdim olunmasından | 190,232 |
| **Faiz gəlirləri** | **28,091** |
| **Sair gəlirlər** | **850** |
| **Xarici valyutaların manata nisbətən məzənnəsinin dəyişməsindən yaranan fərq** | **13,545** |
| **CƏMİ GƏLİRLƏR** | **26,819,219** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | **(13,747,102)** |
| Əməyin ödənilməsi üzrə xərclər | (2,613,822) |
| Sosial sığorta və təminat üzrə xərclər | (484,280) |
| Material xərci | (7,769,676) |
| İcarə ödənişləri | (55,388) |
| Reklam xərcləri | (178,630) |
| Yanacaq xərcləri | (111,651) |
| Komunal xərclər | (23,836) |
| Rabitə xərcləri | (20,328) |
| İnternet xərcləri | (8,216) |
| Bank xidmətləri üzrə xərclər | (185,587) |
| Kredit faizi | (1,295,952) |
| Amortizasiya ayrılmaları | (593,530) |
| Təqdim olunmuş əsas vəsaitlərin qalıq dəyəri | (190,232) |
| Təmir xərcləri | (43,593) |
| Nəqliyyat xərcləri | (133,477) |
| Sığorta üzrə xərclər | (29,544) |
| Gəlirdən çıxılan vergilər | (9,360) |
| **İşlərin aparılması xərcləri** | **(8,050,486)** |
| **Sair xərclər** | **(196,992)** |
| **CƏMİ XƏRCLƏR** | **(21,994,580)** |
| **Maliyyə mənfəəti (zərəri)** | **4,824,639** |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **4,824,639** |
| **Mənfəət vergisi** | **(964,928)** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **3,859,711** |

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə |
|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | |
| Mənfəət vergisindən əvvəlki gəlir | 4,824,639 |
| Əmlak, tikili və avadanlıqların amortizasiyası | 593,530 |
| Təqdim olunmuş əmlak, tikili və avadanlıqların qalıq dəyəri | 190,232 |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər** | **5,608,401** |
| **Əməliyyat aktivlərində (artma)/azalma:** | |
| Cari vergi öhdəliklərində artım/azalma | (964,928) |
| Mal-material ehtiyatları | (588,081) |
| Debitor borcları və alınacaq digər vəsaitlər | (624,912) |
| Verilmiş avanslar | (1,276,864) |
| Digər aktivlər | (505,365) |
| **Əməliyyat öhdəklirərində artma/(azalma):** | **(3,960,150)** |
| Alınmış avanslar | 4,417,444 |
| Kreditor borcları və ödəniləcək digər vəsaitlər | (629,867) |
| Ödəniləcək vergilər | (40,359) |
| Kredit üzrə hesablaşmalar | 456,940 |
| Təsisçilərlə hesablaşmalar | 674,230 |
| Digər öhdəliklər | (18,942) |
| **Əməliyyat fəaliyyətində yönəldilmiş xalis pul vəsaitləri** | **4,859,446** |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri:** | |
| Əmlak, tikili və avadanlıqlar üzrə ödənişlər | (1,013,577) |
| Maliyyə qoyuluşları | (1,276,276) |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(2,289,853)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | |
| Ödənilmiş dividentlər | (4,052,160) |
| Mənfəət üzrə düzəlişlər | (51,853) |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALETLƏRİNDƏ XALİS ARTMA | **113,831** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | **8,094** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna* | **121,925** |

| | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət | Kapital ehtiyatları | Cəmi Kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2021-ci il tarixə qalıq** | **5,010** | **4,143,206** | | **4,148,216** |
| mənfəət (zərər) üzrə düzəlişlər | -- | -- | -- | -- |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -- | 3,859,711 | -- | 3,859,711 |
| Mülkiyyətçilərin kaptal qoyuluşları | -- | -- | -- | -- |
| Mülkiyyətçilər arasında kaptalın bölüşdürülməsi (dividendlər) | -- | (4,052,160) | -- | (4,052,160) |
| Mənfəətin digər istifadəsi | -- | (51,853) | -- | (51,853) |
| **31 dekabr 2022-ci il tarixə qalıq** | **5,010** | **3,898,904** | **--** | **3,903,914** |

# İcbari tibbi sığorta üzrə qiymətlər artırılacaq

"Azərbaycanda icbari tibbi sığorta çərçivəsində vətəndaşlara göstərilən xidmətlərin qiymətində dəyişiklik ediləcək".

Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev jurnalistlərə açıqlamasında deyib.

O söyləyib ki, bu dəyişiklik əhaliyə təsir etməyəcək, çünki ödənişləri agentlik həyata keçirir.

"Səhiyyə sahəsində inflyasiya olur, qiymətlər artır. Bizim işlər daimi təkmilləşdirilir, o cümlədən qiymətlərdə dəyişiklik olur. Yəni icbari tibbi sığorta çərçivəsində vətəndaşlara göstərilən xidmətlərin qiyməti artacaq. Amma bu əhaliyə aid deyil, bizim görəcəyimiz işdir. Gərək tibb müəssisəsinə elə ödəniş edək ki, öz xərclərini rahat şəkildə qarşılıya bilsinlər".

Z.Əliyev bildirib ki, xəstəxanalarda növbələrin tənzimlənməsi istiqamətində də işlər davam etdirilir: "Bunun üçün mobil tətbiq də istifadəyə verilib. Gələcəkdə həkim qəbulunun vaxtı da mobil tətbiq vasitəsilə olacaq və növbə gözləməyə ehtiyac qalmayacaq".




# Azərbaycan hökuməti iqlimə uyğun aqro-ərzaq sistemlərinin inkişafına böyük sərmayə yatırır




İtaliyanın paytaxtı Roma şəhərində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) 43-cü sessiyası davam edir.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən bildirilib ki, Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov su resurslarından səmərəli istifadə mövzusunda sessiyada çıxış edib. Nazir bildirib ki, planetdə torpaq və su resurslarının davamlı təzyiqə məruz qalmasının əsas səbəbi kənd təsərrüfatı fəaliyyətidir. Bütün dünyada olduğu kimi, Azərbaycanda da su ehtiyatlarının məhdudluğu, su itkisi, fermerlərin sudan səmərəli istifadə etməməsi aqrar fəaliyyətdə çətinliklər yaradır. Ölkənin su ehtiyatlarının böyük bir hissəsinin Azərbaycandan kənarda formalaşdığını deyən nazir, məhdud su ehtiyatlarından daha səmərəli istifadə etməyin vacibliyini önə çəkib.

Məcnun Məmmədov deyib: "Ölkəmizdə mövcud su ehtiyatlarının səmərəli idarə olunması üçün güclü siyasi iradə mövcuddur. Bu istiqamətdə görülən işlərdən biri iqlimə uyğun ağıllı kənd təsərrüfatı idarəçiliyinə investisiya qoyuluşu da daxildir. Azərbaycan hökuməti iqlimə uyğun aqro-ərzaq sistemlərinin inkişafına böyük sərmayə yatırır. İnvestisiyaların əsas hissəsi rəqəmsal və ağıllı kənd təsərrüfatının transformasiyasına yönəlib".

Məcnun Məmmədov FAO-nun 43-cü sessiyası çərçivəsində qurumun yenidən sədri seçilmiş Qu Donqyu ilə də görüşüb.

## EBRD ilə maliyyə sektoru üzrə strategiyanın həyata keçirilməsi müzakirə edilib

Azərbaycan Mərkəzi Bankı (AMB) ilə Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) arasında qurumun 2023-2027-ci illər üçün ölkəmizin maliyyə sektoru üzrə strategiyasının həyata keçirilməsi imkanları müzakirə edilib.

AMB-dan bildirilib ki, EBRD-nin Şərqi Avropa və Qafqaz regionu üzrə icraçı direktoru Matteo Patronenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Görüşdə EBRD-nin Qafqaz üzrə yeni regional direktoru təyin olunmuş Alkis Vrienios Drakinos və Azərbaycan üzrə Ofisinin rəhbəri Nataly Muravidze təqdim edilib, Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizdəki fəaliyyəti, o cümlədən bank sektorunda iştirakı, 2023-2027-ci illər üzrə Azərbaycanın maliyyə sektoru üzrə strategiyasının həyata keçirilməsində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb. Həmçinin tərəflər arasında əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə edilib.

"Azmikroinvest" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti 31 dekabr 2022-ci il tarixində bitən il üzrə maliyyə hesabatlarını və bu hesabatlara müstəqil auditorun rəyini öz internet səhifəsində açıqlamışdır. Bu sənədlərlə internet üzərindən ətraflı tanış olmaq üçün keçid:

https://azmikroinvest.az/wp-content/uploads/2023/05/2022az.pdf

# Heydər Əliyevin 100 illiyinə həsr olunmuş karate üzrə açıq turnir başa çatıb

Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Arpaçay Karate Klubunun Karate üzrə Açıq Karate Turniri 23-25 iyun 2023-cü il tarixlərində Bakı İdman Sarayında baş tutub.

Gənclər və İdman Nazirliyinin Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin dəstəyi, Azərbaycan Karate Federasiyaları Assosiasiyasının (AKFA) və Azərbaycan Milli Karate Federasiyasının (AMKF) birgə təşkilatçılığı ilə keçirilən turnirin 1-ci günü – 23 iyun 2023-cü il tarixində AKFA-nın prezidenti Ülvi Quliyevin və AKFA-nın vitse-prezidenti Füzuli Musayevin iştirakı ilə karate üzrə texniki seminar keçirilib.

Bakı İdman Sarayında keçirilən möhtəşəm seminarda Azərbaycanın əfsanəvi karateçiləri başda olmaqla, 500-ə yaxın məşqçi və idmançı iştirak edib. Turnirin ikinci günü karate idman növü üzrə kata və kumitə yarışlarına start verilib.




24 iyun 2023-cü il tarixində, eyni zamanda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Arpaçay Karate Klubunun Açıq Karate Turnirinin açılış mərasimi keçirilib.

Açılış mərasimində nitq söyləyən Azərbaycan Karate Federasiyaları Assosiasiyasının prezidenti, Milli Məclisin üzvü Ülvi Quliyev öncə Ulu Öndər Heydər Əliyevin dövlətimiz üçün misilsiz xidmətlərindən danışıb. Daha sonra Quliyev turnirin əhəmiyyətindən söhbət açaraq, dövlətimizə və vətənimizə sadiq olan vətənpərvər gənclərin yetişdirilməsində karate idman növü üzrə ölkəmizdəki klub və federasiyaların gördüyü işlərdən bəhs edib, bu istiqamətdə fəaliyyət göstərən Arpaçay Karate Klubunun karate cameəsində oynadığı rolu yüksək qiymətləndirib.

Daha sonra turnirin fəxri qonaqları, o cümlədən şəhid ailələri və qazilərə Azərbaycan Karate Federasiyalar Assosiasiyasının Arpaçay Karate Klubunun adından xatirə diplomları təqdim edilib.

Sonda ayrı-ayrı idman klublarının karateçiləri və rəqs qruplarının üzvlərinin iştirakı ilə bədii hissə baş tutub.

3 gün davam edən Arpaçay Karate Klubunun Açıq Turnirində, ümumiyyətlə, paytaxt Bakıdan, habelə Azərbaycanın regionlarından 1000-dən çox idmançı, o cümlədən 8–11 yaşlı uşaqlar, 12–15 yaşlı yeniyetmələr, 16–17 və 18 – 20 yaşlı gənclər kata, kumite və komanda-kumite yarışlarında mübarizə aparıblar.

Medal sayına görə turnirin birincisi "Qara brilyant" klubu, ikincisi Fövqəladə Hallar Nazirliyinin İdman Klubu, üçüncüsü "Riyad" Şotokan Karate-do Klubu, 4-cüsü Mərkəzi Karate Klubu, 5-ci yerin qalibi isə Arpaçay Karate Klubu olub.

# "Əgər yeni uşaq verilişlərini açmaq mümkün deyilsə, olanları yaxşılaşdırmaq lazımdır"

**"Uşaq psixologiyasını bilən aparıcılar, müəlliflər, ssenaristlər, rejissorlar, prodüserlər lazımdır". Bu fikirləri professor Qulu Məhərrəmli "Yeni Müsavat"ın əməkdaşı Xalidə Gəraya müsahibəsində də qeyd edib.**



Məlum olduğu kimi, məktəblilər artıq yay tətilinə buraxılıblar. Onlardan bəziləri rayon və kəndlərə dincəlməyə getsə də, bir qismi bu cür şansdan məhrumdur. Çünki ya valideynləri çalışır, ya rayon və kəndlərdə qohumları yoxdur, ya da ki, valideynlərinin istirahət imkanları yoxdur. Nəticədə həmin uşaqlar günlərini həyətdə oynamaqla, ya da televiziya qarşısında keçirirlər. Lakin televiziya qarşısında vaxt keçirən uşaqların da sayı azlıq təşkil edir. Bəziləri bunu müasir texnologiyaların inkişafı ilə əlaqələndirsə də, təbii ki, əsas səbəblərdən biri yerli televiziyalarda uşaq verilişlərinin sayının çox az olmasıdır.

**Ekran qarşısında olanlar da daha çox Rusiyanın, Türkiyənin müxtəlif uşaq kanallarını seyr etməyə üstünlük verir. Çünki yerli uşaq verilişlərinin səviyyəsi o qədər də qənaətbəxş və yaxud cəlbedici deyil. Əlbəttə ki, bu da uşaqların dünyagörüşünün, danışıq tərzinin formalaşmasına, düşüncə tərzinə öz təsirini göstərir. Bu kanalların hər biri həmin ölkələrin öz auditoriyasına hesablandığından onların təbliğ etdikləri dəyərlər də bu xalqların mentalitetinə və maraqlarına uyğun formalaşıb.**

Qeyd edək ki, əksər dünya ölkələrində uşaq verilişlərinə xüsusi diqqət ayrılır. Məsələn, 1971-ci ildən Almaniyada 4-10 yaşlı uşaqlar üçün nəzərdə tutulan, ən müxtəlif mövzulardan bəhs edən "Telesiçan" verilişi "millətin məktəbi" adlandırılır. 1969-cu ildə yaradılan, 3-12 yaşlı uşaqlar üçün nəzərdə tutulan Amerika istehsalı "Sezam küçəsi" dünyada ən populyar uşaq verilişlərindəndir. Burada uşaqlar yazıb-oxumağı, dünyanın dərki yollarını, ünsiyyət qurmağı, konfliktin sülh yolu ilə həllini öyrənirlər. Balacaları həyata hazırlayan verilişin Avropadan tutmuş Latın Amerikasınadək hər yerdə yerli versiyası hazırlanır. Veriliş ilk illərdə kasıb ailələlərin uşaqlarının təhsilinə kömək məqsədilə yaradılıb.

Ölkəmizə gəldikdə isə xatırladaq ki, köhnə sovet dövründə Azərbaycan televiziyasında "Biləyən", "Piri babanın nağılları", müstəqillik illərində isə "Sehirli güzgü", "Hər birimiz bir çiçək" adlı verilişlər populyarlıq qazanmışdı. 2015-ci ildən isə ölkədə "ARB Günəş" televiziyası yayımlanmağa başladı. Qeyd edək ki, "ARB Günəş" Azərbaycanda fəaliyyətə başlayan ilk uşaq televiziya kanalıdır. Burada uşaqlar üçün müxtəlif əyləncəli verilişlər, əsasən əcnəbi cizgi filmləri yayımlanır. "Xəzər" kanalında isə rəqqasə-aktrisa Oksana Rəsulovanın təqdimatında həftədə bir dəfə "Xoşbəxt sabahlar" verilişi yayımlanır. Proqram həm valideynlər, həm uşaqlar üçün nəzərdə tutulub. Lakin proqramın böyük hissəsi daha çox böyüklərə məsləhətdən ibarətdir.

ATV kanalında "Bir balaca oyun" adlı əyləncəli maarifçi proqram yayımlanır. Bu proqram da nisbətən yuxarı yaş qrupu üçün nəzərdə tutulub. Dinamik, əyləncəli proqramda böyüklər uşaqlar tərəfindən sınağa çəkilir və onlara suallar ünvanlanır. Qonaqlar əsasən televiziya, incəsənət sahəsində tanınan şəxslər olur.

**"Mədəniyyət" kanalında isə Azərbaycan Dövlət Kukla Teatrının aktrisası Səriyyə Mansurovanın aparıcılığı ilə həftəiçi hər gün "Nağıl vaxtı" verilişi yayımlanır. Bu proqramı format etibarilə klassik verilişlərdən biri hesab etmək olar. Verilişdə uşaqlara nağıl oxunur, sonra isə cizgi filmi göstərilir.**

İctimai Televiziyada uşaqlar üçün iki - "7 şüşə" və "Biləndər" verilişləri yayımlanır. "7 şüşə" hərəkətli, uşaqların fiziki imkanlarını, çevikliyini ortaya çıxaran yarışmadır. Geniş yayılmış bu komanda oyunu uşaqlarda rəqabət hissini, mübarizliyi gücləndirir. Fərid Rzayevin aparıcılığı ilə yayımlanan "Biləndər" verilişində isə uşaqlara həyat, fəlsəfə, məişət haqqında suallar verilir.

Digər televiziya kanallarında isə uşaq verilişlərinə rast gəlmək mümkün deyil. Mövzu ilə bağlı teletənqidçi, professor Qulu Məhərrəmli "Yeni Müsavat"a danışıb: "Hesab edirəm ki, Azərbaycanda tədris, mədəniyyət və xüsusən də uşaq verilişlərinə hər zaman ehtiyac var. Əgər yenisini açmaq mümkün deyilsə, olanları yaxşılaşdırmaq lazımdır.

Məsələn, diqqət edək, bizdə hansı populyar uşaq verilişi var ki, valideynlər və uşaqlar ona maraqla baxırlar və yaxud uşaqlar ondan nəsə öyrənirlər? Fikrimcə, indiki halda xüsusi olaraq uşaq kanalının açılmasına ehtiyac yoxdur, lakin müəyyən, xüsusən də büdcədən maliyyələşən televiziyalar ekranlarında uşaq saatı ayırsınlar. Məsələn, bir və ya saat yarımlıq uşaq verilişi edə bilərlər. **Lakin qeyd edim ki, uşaq verilişlərini hazırlamaq elə də asan deyil, burada çox sayda təşkilati işlər, xüsusi heyət tələb olunur. Yəni, uşaq psixologiyasını bilən aparıcılar, müəlliflər, ssenaristlər, rejissorlar, prodüserlər lazımdır.**

AzTV-nin və yaxud bir sıra bağlanmış kanalların, o cümlədən ANS TV-nin xeyli maraqlı uşaq verilişləri olub. Həmçinin vaxtilə uşaqlara bilik verən, əyləndirən radio verilişləri olub, uşaqlar da məmnuniyyətlə onları izləyib. "7-dən 77-yə" kimi maraqlı müsabiqələr olub. Hesab edirəm ki, ən yaxşı yenilik unudulmuş köhnəliyi bərpa etməkdir.

Əgər televiziyalar bunu edə bilmirsə, istehsal studiyaları var, hansı ki biz onlara prodakşnlar deyirik, həmin prodakşnlarla müqavilə bağlayıb, uşaq verilişlərini hazırlayıb, televiziyaya sata bilərlər. Yəni məsələnin yolunu tapmaq, olan büdcədən səmərəli istifadə edib, maraqlı uşaq verilişləri hazırlamaq mümkündür".

# Mərkəzi Gömrük Hospitalının Pediatriya və Neonatologiya şöbəsində balaca pasiyentlərə 24 saat ərzində tibbi xidmət göstərilir




Mərkəzi Gömrük Hospitalında uşaqların sağlam və gümrah böyüməsi üçün hər bir şərait yaradılıb. Hospitalın Pediatriya və Neonatologiya şöbəsinin yüksəkixtisaslı həkimlər tərəfindən balaca pasiyentlərə 24 saat ərzində fasiləsiz tibbi xidmət göstərilir.

Ən müasir avadanlıqlarla təchiz edilmiş Mərkəzi Gömrük Hospitalında yeni doğulan körpələrə beynəlxalq standartlara və protokollara cavab verən ilkin neonatoloji xidmətlərdən başlayaraq, reanimasiya, intensiv terapiya, təcili yardım, ürək-damar əməliyyatları, travmatoloji əməliyyatlar, böyrək və qaraciyər transplantasiyası, uşaq cərrahiyyəsi və terapiyaya qədər geniş spektrli xidmətlər göstərilir.

Balaca pasiyentlərə həkim-pediatr müayinəsi ilə bərabər, otolarinqoloq, oftalmoloq, travmatoloq, kardioloq, qastroenteroloq, uroloq, uşaq cərrahı və digər müayinələr də həyata keçirilir. Hospitalda ambulator və stasionar şəraitdə balaca pasiyentlərə göstərilən tibbi xidmətlərlə yanaşı, valideynlərə uşağın sağlamlığı və inkişafı barədə vacib məlumatlar verilir ki, bu da kompleks şəkildə tez biz zamanda uşağın sağalması və gələcək inkişafında mühüm rol oynayır.

Hospitalın Pediatriya və Neonatologiya şöbəsində uşaqların fiziki inkişafının kontrol təqibi və beynəlxalq standartlara uyğun planlı və təcili peyvənd proqramları həyata keçirilir.

**Mərkəzi Gömrük Hospitalının Pediatriya və Neonatologiya şöbəsində aşağıda qeyd olunan xidmətlər təklif olunur:**

- *İlkin reanimasion tədbirlər;*
- *İntubasiya;*
- *Süni tənəffüs aparatı vasitəsi ilə ağ ciyərlərin ventilyasiyası;*
- *Surfaktantın yeridilməsi;*
- *Mərkəzi damarların (göbək arteriyası və venası) kateterizasiyası;*
- *Mübadilə qan köçürülməsi;*
- *Fototerapiya;*
- *Noninvanziv həyati əhəmiyyətli orqanların monitorinqi;*
- *Neonatal skrininq testləri (fenilketonuriya, Q6-FD və s.);*
- *Endokrin pozğunluğun təyini;*
- *Bütün növ ultrasəs müayinələr (baş beyin, ürək, qarın boşluğu orqanları və s.);*
- *Rentgenoqrafiya;*
- *Qan qazları, qanın, sidiyin ümumi və bütün növ biokimyəvi analizləri;*
- *Çox az çəkili yarımçıq doğulmuş uşaqlara intensiv terapiya və sonrakı qulluq;*
- *Beynəlxalq standartlara uyğun təqvim üzrə bütün növ profilaktik peyvəndlərin aparılması;*
- *Doğumdan sonra kontrol müayinələr və vaksinasiya.*

**Mərkəzi Gömrük Hospitalının Pediatriya və Neonatologiya şöbəsində aşağıdakı xəstəliklər müalicə edilir:**

- *Bətndaxili infeksiya ilə doğulan uşaqlar (CMV, Herpes, Toksoplazmoz, Xlamidioz, Vərəm, Hepatit və s.) ;*
- *Sepsis;*
- *Yenidoğulmuşun hemorragik pozğunluqları;*
- *Yenidoğulmuşun hemolitik xəstəliyi;*
- *Yenidoğulmuşun anemiyası;*
- *Endokrin pozğunluğu olan anadan doğulan uşaqlar;*
- *Ağciyər xəstəlikləri;*
- *Ürək-damar sisteminin xəstəlikləri;*
- *Mədə-bağırsaq sisteminin xəstəlikləri;*
- *Böyrək və sidik çıxarıcı sistemin xəstəlikləri;*
- *Mərkəzi sinir sistemi xəstəlikləri;*
- *Ekstremal az çəkili doğulan uşaqlara intensiv terapiya və qulluq.*

**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova**

# Bakcell Qurban bayramı ilə bağlı şəhid və qazi ailələrinə dəstək göstərib



Bakcell şirkəti Qurban bayramı münasibətilə şəhid və qazi ailələrinə bayram payı təqdim edib.

Xəzər rayonu İcra Hakimiyyətinin təşkilati dəstəyi ilə həyata keçirilən bu təşəbbüs çərçivəsində, Bakcell şirkəti şəhid və qazi ailələrinə baş çəkib, onlara şirkət adından bayram sovqatları verilib. Beləliklə, Bakcell tərəfindən 170-dən çox şəhid və qazi ailəsinə yardım edilib.

Bakcell sosial və digər təşəbbüslər vasitəsilə Azərbaycan vətəndaşlarına, xüsusilə də həssas əhali qruplarına dəstək göstərməyə davam edəcək.

Qeyd edək ki, şirkət "NEQSOL Holding"in tərkibinə daxildir.




**Azəri Light və Brent markalı neftin bir barelinin 22 iyun–5 iyul tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert Maqsud Quliyev**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Sumqayıt Dövlət Universitetinin "Dünya iqtisadiyyatı və marketinq" kafedrasının professoru, iqtisad elmləri doktoru Əliyev Şəfa Tiflis oğluna bacısı

**BƏNÖVŞƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**